**27.04.2011**
**MƏNBƏ:** **AzərTAc**
[http://www.azertag.gov.az/index_az.jsp?id=3630&date=2011-04-27](http://www.azertag.gov.az/index_az.jsp?id=3630&date=2011-04-27)

# Layihənin 2013-cü ilin ikinci yarısında başa çatdırılması nəzərdə tutulur




Bakı, 27 aprel (AzərTAc).

"Bakı-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun 132,70–192,24 kilometrlik hissəsinin yenidən qurulması" layihəsinə əsasən I-B dərəcəli avtomobil yolunun üstündə 18 körpü, 7 yol ötürücüsü və 17 yeraltı piyada, mal-qara və maşın keçidi, 24 avtobus dayanacağı tikiləcəkdir.

"Azərinşaatservis" Məhdud Məsuliyyətli Cəmiyyətindən AzərTAc-a bildirmişlər ki, tikintisi davam edən əsas yolun uzunluğu 59,4 kilometr, köməkçi (dolama) yolların uzunluğu 14 kilometr, torpaq yatağının eni isə 29,9 metrdir. 4 hərəkət zolağından ibarət olacaq avtomobil yolunun hər bir hərəkət zolağının eni 3,75 metrdir. Ümumilikdə layihə üzrə 332 min 699 kubmetr beton, 124 min 375 ton asfalt, 7 milyon 892 min 465 kubmetr torpaq işlərinin görülməsi nəzərdə tutulmuşdur. Tikintisi nəzərdə tutulan drenaj borularının ümumi uzunluğu isə 11 min 603 metrdir.

Nəqliyyat Nazirliyinin "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin sifarişi və Maliyyə Nazirliyinin maliyyəsi ilə həyata keçirilən bu layihə üzrə işlərin 2013-cü ilin ikinci yarısında başa çatdırılması nəzərdə tutulur.